iki sahil
www.ikisahil.az / www.ikisahil.tv
28 oktyabr / 2021
Region

## Tahir Rzayev:

# Zəngəzur dəhlizinin bərpası yeni iqtisadi perspektivlər vəd edir

**İkisahil.TV-nin bugünkü müsahibi Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayevdir**

**- Tahir müəllim, Azərbaycan və Türkiyə arasında iqtisadi, siyasi, hərbi əlaqələr daha da intensivləşib. Bu, region üçün hansı mühüm dəyişiklikləri vəd edir?**

- Azərbaycan və Türkiyənin münasibətləri iki müttəfiq və ya dost ölkə anlayışlarından daha böyükdür. Biz iki qardaş ölkəyik. Ulu öndərimiz Heydər Əliyevin dediyi "Bir millət, iki dövlət" fikri həqiqətən də reallıqdır. Buna bənzər bir fikri Prezident Rəcəb Tayyib Ərdoğan da səsləndirmişdir: "Azərbaycan bizim üçün sadəcə dövlətlərdən bir dövlət, azərbaycanlı qardaşlarımız da millətlərdən bir millət deyil. Biz eyni dili danışan, eyni inanca mənsub, ortaq bir tarixi keçmişi olan, sözdə deyil, əməldə qardaş, bir millət, iki dövlətik".

Dost və qardaş ölkələr olan Türkiyə və Azərbaycanı iqtisadi-siyasi, hərbi, ticari, elmi-mədəni, ümumiyyətlə, bütün sahələrdə tarixi yaxınlıq və eyni milli dəyərlər birləşdirir. Bütün tarixi dövrlərdə davamlı və uzunmüddətli əlaqələr quran Türkiyə və Azərbaycanın ictimai-siyasi, iqtisadi-sosial və mədəni həyatında dinamizm meyilləri müşahidə olunub. Həmişə bir-birinin köməyini, çətin sınaqlarda dəstəyini hiss edən Azərbaycanla Türkiyənin münasibətlərində hansısa maraqlara söykənən tərəfdaşlıq meyilləri olmayıb. Bu ölkələri bir-birinin problemlərinə diqqət və qayğı, səmimiyyət, qardaşlığın, milli birliyin genetik kodları birləşdirir. Türkiyə-Azərbaycan regionda sarsılmaz dostluq və qardaşlıq formatı yaradıblar. Prezident İlham Əliyevin bəyan etdiyi kimi, "Biz yaxşı günlərdə də, pis günlərdə də daim bir yerdəyik. Çünki birliyimiz həm bugünkü əlaqələrimizi gücləndirir, həm də tarixi əsaslara söykənir."

**-Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın oktyabrın 26-da Qarabağa səfəri bir daha Azərbaycan-Türkiyə dostluğunu sübut etdi...**

- Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Qarabağın hava qapısının - Füzuli Beynəlxalq Hava Limanının açılış mərasiminin keçirilməsi çox mühüm tarixi hadisədir. Səfər çərçivəsində Horadiz-Cəbrayıl-Zəngilan-Ağbənd (Zəngəzur dəhlizi) avtomobil yolunun da təməli qoyulub. Zəngəzur dəhlizi açıldıqdan sonra uzun illər blokadada qalmış Azərbaycanın ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası bu blokadadan xilas olacaq. Zəngilanı Naxçıvandan ayıran 40 kilometrlik Zəngəzur dəhlizinin bərpa olunması yeni iqtisadi perspektivlər yaradacaq. Şərqi Zəngəzur bölgəsində yerləşən Zəngilanı qədim torpağımız olan Qərbi Zəngəzurla, daha sonra Ordubad vasitəsilə Naxçıvanla və Türkiyə ilə birləşdirmək Azərbaycanın növbəti tarixi qələbəsidir. Zəngəzur dəhlizi Avropanı Asiya ilə birləşdirən çox önəmli nəqliyyat dəhlizi olacaq. Azərbaycanla qardaş Türkiyə Cümhuriyyəti arasında quru sərhədlər bərpa olunacaq. Zəngilan rayonu isə beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevriləcək".



**- Qardaş ölkənin Prezidentinin Qarabağa səfəri daxili auditoriya ilə yanaşı, dünyanın da diqqət mərkəzində idi. Bu kontekstdən yanaşsaq səfər hansı mesajları özündə ehtiva etdi?**

- Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın ölkəmizə səfəri ictimaiyyət tərəfindən böyük maraqla qarşılandı. Bu səfər iki ölkə arasında sarsılmaz dostluğu növbəti dəfə dünya ictimaiyyətinə açıq şəkildə nümayiş etdirdi. Bundan əvvəl dövlət başçılarının Şuşada baş tutan görüşündə tarixi Şuşa Bəyannaməsi imzalanmışdı. Bu görüş həm də Şuşa Bəyannaməsinin müddəalarının uğurla həyata keçirilməsinin sübutudur. Qardaş dövlətlərin birgə fəaliyyəti çərçivəsində görülən işlərin hər biri mühüm siyasi hadisədir. Azərbaycan və Türkiyə birliyinin fonunda dövlət başçılarının göstərdikləri səylər bəzi dairələrə isə açıq mesajdır. Bütün dünya Azərbaycan və Türkiyə qardaşlığını təcəssüm etdirən "Bir millət, iki dövlət" milli konsepsiyasının bəşəri missiya olduğunu görür. Azərbaycan Türkiyə ilə birliyini nümayiş etdirməklə dostları qürurlandırır, düşmənlərə isə göz dağı verərək vahimələndirir. Ancaq hamı bilir ki, Azərbaycan-Türkiyə birliyi regional və beynəlxalq təhlükəsizliyin təminatçısıdır. Bu qardaşlıq və müttəfiqlik siyasi, iqtisadi, sosial, mədəni və başqa sahələrdə əməkdaşlığa üstünlük verir. Bakı və Ankara bu istiqamətdə fəaliyyət göstərmək istəyən xoşməramlılara qapılarını hər zaman açıq saxlayır.

**- Həm Türkiyə, həm də Rusiya Azərbaycanın yaxın tərəfdaşıdır. Bu ölkələr arasında münasibətlərin perspektivlərini necə proqnozlaşdırmaq olar?**

- Rusiya ilə Türkiyə tarixin müxtəlif dövrlərində mütəmadi olaraq dərin münasibətlər qurub, iri layihələr həyata keçiriblər. Xüsusilə də iqtisadi əlaqələrin intensiv inkişafı dövlətlərarası münasibətlərin dinamikasını daha da artırıb. Hər iki ölkə geniş və regionda müqayisə olunmayacaq dərəcədə enerji, nəqliyyat və kommunikasiya layihələrinə imza atıblar. Ümumiyyətlə, son illərdə bu ölkələrin iqtisadi və ticari əlaqələri ən yüksək səviyyəyə çatmışdı. Tarixin müxtəlif dövrlərində qlobal siyasi-ictimai hadisələrin təsiri nəticəsində Rusiya-Türkiyə münasibətlərində gərginliklər olub. Amma bu, çox uzun sürməyib və əlaqələr bərpa olunub, inkişaf edib. Rusiya hökumətinin üzvləri də açıq şəkildə bunu etiraf edirlər. Hətta Avropa Birliyinin Rusiyaya qarşı sərt sanksiyalar tətbiq etdiyi vaxtda rəsmi Ankara buna qoşulmadı və Rusiya ilə iqtisadi əməkdaşlığı daha da artırdı, ölkəyə mal ixracının həcmini çoxaltdı. İndiki şəraitdə də Rusiya və Türkiyə əməkdaşlığın normallaşmasına imkan yaradan addımların atılmasında maraqlıdırlar. Çünki dövlətlər arasında enerji, nəqliyyat, logistika, tranzit layihələrinin dayandırılması və yaxud intensivliyin azaldılması hər iki tərəfə zərər vurar. Onu da qeyd edim ki, Rusiyanın Türkiyə ilə əlaqələrinin bərpasını və inkişafını regiondakı vəziyyət, geosiyasi tendensiyalar, Azərbaycanla hər iki ölkənin sıx münasibətləri fonunda real iqtisadi mühit də labüd edir. Hər üç ölkə regionda birgə geniş iqtisadi proqramlar, layihələr həyata keçirə bilərlər.

**Şəmsiyyə Əliqızı,**
***"İki sahil"***